# MÜASİR KİTABXANALARIN KONSEPTUAL MODELİ (İDEYA VƏ ANLAYIŞLAR)

(I məqalə)

A.A. XƏLƏFOV
*Bakı Dövlət Universiteti*

*Məqalə müasir dövrdə tədqiqinə və öyrənilməsinə böyük ehtiyac duyulan, indiyə qədər respublikamızda tədqiqat və araşdırmalar obyekti olmayan bir problemə həsr edilmişdir.*

*Məqalədə müasir kitabxanaların modelini yaratmaq məqsədi ilə araşdırmalar aparılmış, ənənəvi kitabxanaların keçdiyi beşminillik yola nəzər salınmışdır. Həmçinin informasiya cəmiyyəti şəraitində kitabxana işi sahəsində aparılan islahatlar, kitabxana işinin informasiya ilə inteqrasiyası prosesi ətraflı təhlil edilmişdir. Məqalədə görkəmli kitabxanaşünas alimlərin elmi fikirlərinin və ideyalarının öyrənilməsi əsasında kitabxanaların strukturu, statusu, işinin məzmunu, məqsəd və vəzifələri haqqında gələcək kitabxanaların modelinə dair yeni fikirlər və ideyalar irəli sürülməyə cəhd göstərilmişdir.*

***Açar sözlər:*** *konseptual model, status, struktur, kitabxanaların sosial funksiyaları, elektron kitabxana, elektron kitabxana işi, elektron kitabxanaşünaslıq, hibrid kitabxana və s.*

XXI əsr tarixə informasiya cəmiyyəti əsri kimi daxil olmuşdur. "İnformasiya cəmiyyəti" terminini ilk dəfə elmi dövriyyəyə yapon alimi Y. Xaişi daxil etmişdir. Bu ad altında yaponlar kompüterləşmənin yüksək səviyyəsini, informasiyaya daxil olmağı təmin edən cəmiyyəti başa düşmüşdülər.

Beləliklə, XX əsrin axırı XXI əsrin əvvəllərində alimlər belə bir ümumi fikrə gəldilər ki, bəşəriyyət öz inkişafının yeni mərhələsinə-informasiya fəzasına, deməli, informasiya cəmiyyətinə daxil olur. Bu, nəinki nəzəri problemdir. Bu reallıqdır[1].

Məhz XX əsrin axırı XXI əsrin əvvəllərində dünyada informasiya inqilabı baş vermiş, öz mahiyyəti, xarakter-xüsusiyyətləri ilə tamamilə yeni cəmiyyət olan informasiya cəmiyyəti bərqərar olmuşdur. İnformasiya inqilabı demək olar ki, cəmiyyətin bütün sahələrinə: iqtisadiyyata, siyasətə, elmə, təhsilə, mədəniyyətə, mənəviyyata, insanların düşüncə tərzinə, psixologiyasına və s. ciddi təsir göstərmiş, demək olar ki, bütövlükdə cəmiyyətin maddi və mənəvi aləmində böyük yeniləşmə prosesinin baş verməsinə gətirib çıxar-

[1] *Kolenkova Z.Q., Akilis M.M., Kuznetsov N.N..Ümumi sosiologiya.B., 2007, s.123*

mışdır. Bütün bunlar informasiya cəmiyyətinin təbiətindən doğmuş, yeniliklər, innovasiyalar cəmiyyətdə baş verən ictimai və siyasi proseslərin mahiyyətinə hopmuşlar. İnformasiya cəmiyyəti yeni qlobal sosial inqilabın nəticəsi kimi informasiya partlayışından doğan informasiya və kommunikasiya nəticəsində formalaşan yeni tipli cəmiyyətdir. Başqa cəmiyyətlər kimi informasiya cəmiyyətinin də özünə məxsus xüsusiyyətləri vardır. Bu xüsusiyyətlər hələ tam müəyyənləşməsə də dünya alimləri informasiya cəmiyyətinə məxsus xüsusiyyətlər içərisində informasiya cəmiyyətinin yeni tipli cəmiyyət, bilik cəmiyyəti və qlobal cəmiyyət olduğuna daha çox diqqət yetirilməsini zəruri hesab edirlər. İnformasiya cəmiyyəti azad, demokratik bir cəmiyyət olduğundan insanlara xidmət etməyi qarşısına məqsəd kimi qoyur və informasiyanın ümumaçıqlığını təmin edir, informasiyanın ümumaçıqlığını təmin etmək məqsədi ilə informasiya mərkəzləri, müəssisələri, müxtəlif tipli kitabxanalar yaradılmalı və onlar informasiya texnologiyaları ilə təmin olunmalıdır. Həmçinin bütün informasiya prosesləri computer-ləşdirilməli, internetə qoşulmalıdır. İnformasiya cəmiyyətində baş verən yeniliklərdən ən zərurisi informasiya istehsalıdır. Son dövrlərdə bütün qabaqcıl ölkələrdə bu proses xeyli dərəcədə güclənmiş, informasiya texnologiyaları ilə təchiz olunmuş, bütün informasiya müəssisələri və böyük kitabxanalar informasiya (biliklər) istehsalını özlərinin əsas vəzifəsi kimi yerinə yetirməyə başlamışlar.

Məlum olduğu kimi, hələ 1962-ci ildə məşhur amerikan iqtisadçısı F.Meklap belə bir fikir söyləmişdir ki, istənilən digər məhsul kimi biliyi də istehsal etmək, yerini dəyişmək, satmaq və satın almaq olar"[2].

Olduqca böyük elmi əhəmiyyət kəsb edən bu ideya tezliklə bütün dünyada yayıldı və təcrübədə istifadə edilməyə başlandı. Məhz buna görədir ki, XXI əsrin əvvəllərindən bütün informasiya müəssisələri, böyük elmi kitabxanalar informasiya istehsalına başlamış və iqtisadi imkanlarını xeyli artırmış, böyük kitabxanalar da informasiya emalı müəssisələrinə çevrilmişlər.

Beləliklə, yeni tipli cəmiyyət olan informasiya cəmiyyətinin qarşısında daim yeniləşmək, yeni ideyalarla zənginləşmək, qabaqcıl texnologiya ilə silahlanmaq vəzifəsi qoyulmuşdur. Bu da informasiya müəssisələrinin və kitabxanaların daim yeniləşməsini, cəmiyyətin qarşıda qoyduğu vəzifələrə cavab verməsini tələb edir. Minilliklər ərzində xalqların yaşayış məkanı və qızıl onların başlıca resursları olmuşdur. İnformasiya cəmiyyətində isə yeni resurs informasiya resursu, meydana gəlmişdir.

Müasir cəmiyyət kimi informasiya cəmiyyətinin yeniliyi bilavasitə insanların informasiya təminatını ödəmək üçün informasiyanı toplayıb, saxlayıb, onu sistemləşdirib, informasiya texnologiyasının, müxtəlif elektron vasitələrin köməyi ilə cəmiyyət üzvlərinin istifadəsinə verməkdir. Bunun üçün

[2] *Qolenkova Z.T., Akuliç M.M., Kuznetsov V.N.. Ümumi sosiologiya. B. 2007, s.123.*





informasiya müəssisələri və kitabxanalar biliklər istehsalını ön plana çəkməli və informasiyanın hamı üçün açıq olmasını təmin etməlidir.

İnformasiya cəmiyyətinin əsas xüsusiyyətlərindən biri də onun biliklər cəmiyyəti olmasıdır. Bəşəriyyətin inkişafında və tərəqqisində, insanların kamilləşməsində mühüm və həlledici rol oynayan ictimai nemət olan bilik, bütün cəmiyyətlərin hərəkətverici qüvvəsi olmuş, bəşəriyyət öz inkişafında həmişə biliyə, kamilliyə can atmışdır. İnsan biliyi durğunluğu sevmir o həmişə inkişafda, dərinləşməkdədir Məhz buna görədir ki, bəşər cəmiyyətinin son fazası olan informasiya cəmiyyətinin əsas amalı da "biliklər cəmiyyəti" kimi formalaşmasıdır. YUNESKO-nun sənədlərində göstərilir ki, "biliklər cəmiyyətinin inkişaf mənbəyi məxsusi rəngarənglik və spesifik xüsusiyyətlərdir. Hər bir cəmiyyət biliklər sahəsində özünə məxsus üstünlüyə malikdir"....[3]

İnformasiya cəmiyyəti deyilən cəmiyyət dünya miqyasında informasiya texnologiyalarına və informasiya əmtəəsinin mübadiləsinə əsaslanır. "Biliklər cəmiyyəti isə əksinə, texnoloji məqsədlərə deyil, idrakı məqsədlərə can atır. Bu məqsədlər öz miqyasına görə heç də həmişə qlobal olmur, onlar mədəni, siyasi və iqtisadi istiqamətlərə əsaslanır[4].

İctimai sərvət olan informasiyanın cəmiyyət üzvlərinə maneəsiz çatdırılması, cəmiyyətin mədəni, intellektual səviyyəsinin yüksəldilməsinə kömək etməklə, iqtisadi kapitalın insan kapitalına çevrilməsinə insan amilinin dövrün tələbləri səviyyəsinə yüksəlməsinə səbəb olan amildir. Bilik cəmiyyətinin formalaşmasında cəmiyyətin bütün sahələrinin iştirakı və köməyi olduqca zəruridir. Bəşəriyyətin işıqlı gələcəyinin rəhni olan bilik cəmiyyətinin formalaşmasında bütün başqa sahələrlə yanaşı kitabxana işi sahəsinin rolu da olduqca əhəmiyyətlidir. Kitabxanalar cəmiyyətin yaratmış olduğu təhsil, elm və ideoloji qurumlar içərisində ən qədimi olmaqla elmin, təhsilin, mədəniyyətin inkişafına kömək və xidmət edən olduqca əhəmiyyətli bir müəssisədir. Kitabxanalar elmi biliklərin mənbəyi olan kitabları, digər yazılı sənədləri, elektron informasiya vasitələrini insanların istifadəsinə verən, insan potensialının daim və ardıcıl mədəniləşməsinə, intellectuallaşmasına, humanistləşməsinə kömək edən sosial institutdur.

Müasir dünyada kitabxanaların sosial funksiyaları haqqında müxtəlif fikirlər, müddəalar irəli sürülməsinə baxmayaraq kitabxanaların sosial institut olması haqqında bütöv və dəyişilməz fikir daha da möhkəmlənməkdədir. Bu fikir nəinki alimlər, kitabxana ictimaiyyəti tərəfindən, həmçinin demokratik dövlətlər tərəfindən irəli sürülür, qərarlar və qanunlar qəbul edilir. Bu baxımdan gənc, müstəqil, demokratik Azərbaycan Respublikasının Milli

[3] *Kitabxanalar biliklər cəmiyyətində. B., 2006, səh.51*
[4] *Kitabxanalar biliklər cəmiyyətində. B., 2006, səh.48*

Məclisinin 1998-ci ildə qəbul etdiyi "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu olduqca böyük maraq doğurmaqla beynəlxalq əhəmiyyət kəsb edir. Qanunda göstərilir: "Kitabxana elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur [5].

Kitabxanaların funksiyalarının müəyyənləşdirilməsində Azərbaycan konsepsiyası daha dolğun olması və elmi xarakteri ilə diqqəti cəlb edir.

Müasir şəraitdə böyük aktuallıq kəsb edən texniki və texnoloji inkişaf kitabxana işinə, onun informasiya funksiyasına böyük yenilik gətirmiş, onu informasiya məkanına çevirmişdir. Bu məkan bütün fiziki sərhədləri dağıtmış, virtual məkan kimi dünya elminə, təhsilinə, mədəniyyətinə və iqtisadiyyatına xidmət etməyə başlamışdır.

Bilik cəmiyyətinin formalaşmasında cəmiyyətdə sosial institut kimi qəbul edilən kitabxanaların rol və əhəmiyyəti danılmazdır. Kitabxanalar informasiyanın əsas daşıyıcısı kimi böyük kommunikativ fəaliyyəti ilə əlaqədar demək olar ki, bütün kommunikasiya vasitələrinə həlledici kömək edir, mədəniyyətlərarası əlaqələrin yaranmasında böyük beynəlxalq əhəmiyyət daşıyır. Heç təsadüfi deyil ki, YUNESKO-nun kitabxanalar haqqında manifestində kitabxanalar informasiya cəmiyyətinin ürəyi adlandırılır.

Məhz buna görədir ki, informasiya cəmiyyətində sosial-mədəni infrastrukturun əsas elementi olan kitabxananın müasir konseptual modelinin öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Müasir kitabxananın konseptual modeli haqqında fikir söyləmək olduqca mürəkkəb bir problem olduğundan hər şeydən əvvəl kitabxanaların 5 minillik tarixinə nəzər salmaq, müqayisəli metod əsasında onların keçdiyi şərəfli tarixi yolu, bəşər sivilizasiyasının inkişafına verdiyi qiymətli töhfəni göz önünə gətirmək, ilk kitabxanaların necə yaranması, inkişaf edib formalaşması, tarixi təkamül yolu ilə müasir kitabxanalara, sosial instituta çevrilməsi zərurəti mühüm əhəmiyyət kəsb edir. Bu tarixi inkişaf yolunun elmi təhlili və ümumiləşdirilməsi əsasında, həmçinin müasir informasiya cəmiyyətinin kitabxanalar qarşısında qoyduğu olduqca mürəkkəb və yeni vəzifələrə müvafiq kitabxanaların konseptual modeli haqqında fikir söyləmək olar.

Müasir şəraitdə kitabxanaların konseptual modelinin yaradılması problemi birdə ona görə böyük aktuallıq kəsb edir ki, informasiyanın cəmiyyətdə tutduğu mövqeyə, onun toplanması, qorunub saxlanması və cəmiyyətin istifadəsinə verilməsi sahəsində daha çox rəqəmsal, elektron informasiyaya, elektron kitaba, kitabxanaya aludə olan informatiklər ənənəvi

[5] *Xələfov A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. B.,2006, s.245*





kitabın və kitabxananın əhəmiyyətini azaltmağa çalışırlar. Belə ultra yeniliklər keçmiş təcrübəni, kitabxanaların keçmiş olduğu yolu, əldə edilmiş ümumbəşəri təcrübəni qiymətləndirmədən yan keçən, yəni informasiya texnologiyalarına aludə olan insanlardır. Onlar açıq-açığına olmasa da dolayı yollarla ənənəvi kitabxanaların əleyhinə çıxış edir, kitab nəşrinin tezliklə elektron kitablarla, kitabxanaların isə elektron kitabxanalarla əvəz edilməsinə tələsirlər. Kitabxanaların minilliklər boyu formalaşmış struktur quruluşunu və sosial vəzifələrini qısa zaman kəsiyində dəyişməyə çalışan, onların tipinə, növünə, xidmət sahəsinə, fəaliyyət göstərdiyi ətraf mühitə, oxucuların əhatə dairəsinə, onların tələb və sorğularının necə ödəniləcəyinə məhəl qoymurlar. Onlar dərk etməlidirlər ki, bəşəriyyətin yaddaşı olan kitabxanalar elm, informasiya, bilik, mənəviyyat mənbəyi kimi insan ruhunun bütün zənginliklərini qoruyub saxlayan, onu nəsildən-nəslə ötürən əvəzedilməz mənəvi abidədir. Beş min il tarixi yol keçmiş, daim bəşəriyyətin işıqlı gələcəyinə, elminə, təhsilinə, mədəniyyətinə, mənəviyyatına xidmət etmiş, insanlığın kamilləşməsinə, insan ağlının, zəkasını dərinləşməsinin, əxlaqının saflaşmasının əsas amili olmuş bu mənəvi abidə həmişəyaşardır, əbədidir, bəşəridir, cəmiyyətin sivilizasiyasının məhək daşıdır.

XX əsrin ikinci yarısından başlayaraq elm sahəsi kimi inkişaf edib formalaşan "informatika" ənənəvi kitabxanaların səmərəsizliyi haqqında, onu əvəz edə biləcək yeni bir müəssisənin yaradılması haqqında əsaslı bir ideya irəli sürə bilmədi. Qloballaşan dünyada bu problemin həllinə ənənəvi kitabxanaçılıqla informasiyanın inteqrasiyası kimi daha çox səslər ucalmağa başladı. Bizcə, ənənəvi kitabxanaçılıqla informatikanın gələcəyi haqında belə bir dünyabaxışı daha səmərəli, müasir dünyanın strategiyasına daha münasib baxış ola bilər.

Bu baxımdan son zamanlar informasiya cəmiyyəti şəraitində ənənəvi kitabxanaçılığa dair dünyada gedən proseslər daha dözümlüdür. Hiss edilmədən ənənəvi kitabçılığa, kitabxanaçılığa, ümumiyyətlə, kitaba və mütaliəyə münasibət müsbət mənada da proqressiv xarakter daşımağa başlayıb. Dünyanın qabaqcıl ölkələrində son dövrdə ənənəvi kitabxanaçılıqla informasiya cəmiyyətinin qarşıda qoyduğu vəzifələrə uyğun formalaşmış, kitabxana işinin informasiyalaşdırılması prosesi arasında canlı və səmərəli inteqrasiya prosesi daha geniş yayılmağa, özünü təsdiqləməyə başlamışdır. BMT-nin ən nüfuzlu, bəşəriyyətin gələcək inkişafına əhəmiyyətli humanitar təsir göstərən qurumu olan YUNESKO-nun "kitabxanalar informasiya cəmiyyətinin ürəyi" bəyanatı XXI əsr dünya kitabxanalarının inkişaf istiqamətini, məqsəd və vəzifələrini müəyyənləşdirən bir sənəd kimi qəbul edilməli, kitabxanaların konseptual modeli müəyyənləşdirilərkən bu sənəd əsas götürülməlidir.

XX əsrin axırı və XXI əsrin əvvəllərində dünyada baş verən informasiya inqilabı prosesində sürətlə inkişaf edib təkmilləşən, cəmiyyətin bütün sahələrinə böyük təsir göstərən informatika elmi ənənəvi kitabxanaçılığın, cəmiyyətin gələcək inkişafı üçün səmərəsizliyi haqqında, onu əvəz edə biləcək yeni bir müəssisənin yaradılması haqqında əsaslı bir ideya irəli sürə bilmədi. Qloballaşan dünyada bu problemin həllinə ənənəvi kitabxanaçılıqla informasiya nailiyyətlərinin inteqrasiyası kimi daha çox səslər ucalmağa, elmi fikirlər söylənməyə başlandı. Bizcə, bu cür dünya baxışı daha səmərəli müasir dünya strategiyasına daha münasib baxış ola bilər. Bu problemlər haqqında olduqca mühüm nəzəri müddəalarla çıxış edən görkəmli rus alimi Y.L.Şrayberq yazır: "Son zamanlar qloballaşan dünyada kitabxana-informasiya xidmətinə eləcə də ayrılıqda cəmiyyətin informasiya təminatına həsr edilmiş beynəlxalq elmi konfranslarda, simpoziumlarda demək olar ki, ənənəvi kitabxanaların elektron kitabxanalarla, ənənəvi kitabların elektron kitablarla əvəz edilməsi problemi gündəlikdən çıxıb. Bunun əvəzində əsas problem kimi kitabxana-informasiya infrastrukturunun bizim yaşadığımız informasiya təcavüzü əsrində inkişafı prinsipləri meydana gəlmişdir[6].

Bu inkişaf sanki düşünülmüş qaydada, ənənəvi kitabxanaların strukturunda, sosial vəzifələrində heç bir radikal dəyişikliklər aparılmadan informatika elminin son nailiyyətlərinə, kitabxana-informasiya texnologiyasının, avtomatlaşdırılmış informasiya proqramlarının böyük kitabxanalarda tətbiqinə, kitabxanaların kompüterləşməsinə, kitabxana işi ilə informatikanın inteqrasiyasına gətirib çıxardı. Bu proses tədricən kitabxana işinin bütün sahələrinə, kitabxana fondunun komplektləşdirilməsindən, fondun formalaşmasından başlayaraq kitabxana kataloqlarının təşkilinə, məlumat-informasiya aparatına, kitabxananın uçot-hesabat və statistik fəaliyyətinə və oxuculara kitabxana xidməti prosesinə tətbiq edilməyə başladı. Ənənəvi kitabxana işi ilə informasiyalaşdırılmış kitabxana işi arasında bir-birini tamamlayan nəzəri cəhətdən əsaslandırılmış, ümumiləşdirilmiş elə yeni ideyalar meydana gəldi ki, bunları bir-birindən ayırmağın, onları ayrıca təhlil etməyin məqsədə müvafiq olmamağı ortaya çıxdı.

Cəmiyyətdə baş verən texnoloji proqres kitabxana-informasiya və kompüter texnikası sahəsində böyük dönüş yaranmasına səbəb oldu. İnformasiya istehsalı prosesi sənaye xarakteri almağa başladı ki, bu da iqtisadiyyatın, elmin, mədəniyyətin, təhsilin inkişafına və insan amilinin formalaşmasına ciddi təsir göstərməyə bilməzdi. Bu yeniləşmə prosesi kitabxana fondunun strukturuna, onun keyfiyyətcə yeniləşməsinə, fondun tərkibində yeni növlərin meydana gəlməsinə səbəb oldu. Məlum olduğu kimi,

[6] *Шрайберг Я.Л. Библиотеки электронная информация изменяющееся общество в информационном веке. М., 2006, стр.9.*





ənənəvi kitabxanaların tərkibi əsasən üç mühüm növdən kitab, dövrü nəşrlər, qəzet və jurnallar fondlarından ibarət idi. İnformasiya cəmiyyəti şəraitində isə fonda yeni elektron vasitələrin daxil olması kitabxanada yeni elektron vasitələr fondunun yaradılmasını əsaslandırdı. Elektron vasitələr fondunda: elektron kitab, elektron disklər, informasiya xarakterli disklər, multimedia vasitələri, kitab haqqında kiçik həcmli telefilmlər və s. geniş yer tutmağa başladı. Dövrün tələbi ilə yaranmış, bilavasitə informasiyanın geniş miqyas almasına kömək edən bu vasitələr kitabxanalardan yeni metodologiya yeni iş üsulları ilə işləməyi tələb edirdi. İnformasiyanın sənayeləşməsi, kitabxananın strukturunda baş verən əsaslı dəyişikliklər, yeni iş forma və üsullarının meydana gəlməsi, kitabxana işində formalaşmış innovasiyalar həmçinin ənənəvi kitabxanaçı peşəsinə də olduqca əhəmiyyətli yeniliklər gətirdi. Kitabxanaçı peşəsinin məzmununda inqilabi proses baş verdi. İlk dəfə olaraq 5 minillik tarixi olan kitabxanaçılıq peşəsinin məzmununu elmi biliklər, elmi-texniki inqilabın əsas müddəaları və informatika elminin əsaslarını əhatə edən biliklər və peşə vərdişləri daxil oldu. Yeni elmi nəzəri fənn kitabxanaçılıq informatikası, elektron kitabxanaşünaslıq, elektron kitabxana işi, elektron vasitələrin təsnifi, fondda düzülüşü, mühafizəsi, istifadə qaydaları, elektron kataloq, elektron vasitələrlə iş və s. kitabxanaçılıq sənətinin məzmununu zənginləşdirdi.

Həmçinin texnoloji inkişaf, informasiya texniki vasitələrinin kitabxana işinə tətbiqi, kitabxanaçıların idrakına və psixologiyasına təsirsiz ötüşmədi. Kitabxanaçılıq peşəsi ənənəvi kitabxanaçılıqla informasiyanı birləşdirən, olduqca mürəkkəb informasiya vasitələrindən istifadə məharəti əldə edə bilən, kompleks peşəyə çevrildi. Kitabxanalar informasiyanın miqdar etibarilə artması ilə əlaqədar yeni çətinliklərlə, durmadan artan informasiyanı oxuculara çatdırmağa forma və metodlarının təkmilləşməsi prosesi ilə üzbəüz qaldı. Bu təkmilləşmə prosesi hər şeydən əvvəl informasiya təbliğatının fərdiləşdirilməsini və ixtisaslaşdırılmasını irəli sürürdü. Kitabxanaçılıq peşəsinin məzmununda baş verməkdə olan bu və ya digər dəyişikliklər isə öz növbəsində kitabxanaçılığın təhsil standartlarının yeniləşməsi zərurətini irəli sürürdü.

İnformasiya cəmiyyətinin kitabxana şəbəkələri qarşısında qoyduğu ən mühüm, olduqca yeni və mürəkkəb vəzifə biliklərin idarə edilməsində iştirak etməkdir. Biliyin strukturlaşması, təşkili və onunla iş metodlarının yaradılması prosesi bilavasitə idrak prosesi ilə bağlı olduğundan kitabxanaşünaslıq fəlsəfəsinin əsasını təşkil edir. "Kitabxana fəlsəfəsinin əsasını insanın biliklərlə necə davranması, onu necə sistemləşdirməsi və yeni bilikləri necə yaratması məsələlərini təşkil edir"[7].

[7] *Kitabxanalar biliklər sistemində. (ikidilli Azərbaycan-Rusiya layihəsi). B., 2006, səh.304.*

Biliklərin idarə olunması hər şeydən əvvəl biliklərin sistemləşdirilməsini, biliklərin bütün məcmusunun dəqiq formalaşdırılmasını tələb edir. Bu isə öz növbəsində kitabxanada biliklərin idarə olunması prosesini həyata keçirən mütəxəssisdən-peşəkar kitabxanaçıdan dərin bilik, intellektual və peşəkarlıq səviyyəsi tələb edir. Biliklərin idarə edilməsi prosesinin kitabxana işinin strukturuna daxil edilməsi kitabxanaların elmi funksiyasının yüksəldilməsini, kitabxanalarda elmi idarə edə biləcək yüksək ixtisaslı kadr potensialının formalaşması zərurətini meydana çıxarır. Kitabxanaların konseptual modelinin hazırlanmasında onların sosial funksiyalarının öyrənilməsinin və dəqiqləşdirilməsinin mühüm əhəmiyyətini nəzərə alaraq bu funksiyalar haqqında məlumat vermək yerinə düşərdi.

Elmi funksiya: Biliklərin idarə edilməsinin kitabxanaların sosial funksiyasına daxil edilməsi onların elmi əhəmiyyətini, elmi tədqiqatların, elmi araşdırmaların aparılmasındakı rolunu bir daha artırır. Müasir dünyada kitabxanaların sosial funksiyaları haqqında müxtəlif fikirlər, müddəalar olmasına baxmayaraq, kitabxanaların sosial institut olması haqqında fikirlər və müddəalar qalmaqda və vahid fikir kimi daha da möhkəmlənməkdədir. Bu fikir nəinki, alimlər, kitabxanaşünaslar, kitabxana ictimaiyyəti tərəfindən müdafiə edilir, həmçinin demokratik ölkələr, dövlətlər tərəfindən, irəli sürülür, qərarlar və qanunlar qəbul edilir. Bu baxımdan demokratik, müstəqil Azərbaycan Respublikasının Milli Məclisinin 1997-ci ildə qəbul etdiyi "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu böyük maraq doğurur və beynəlxalq əhəmiyyət kəsb edir.

Qanunda göstərilir: "Kitabxana elm, mədəniyyət, təhsil, tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur"[8].

Kitabxanaların funksiyalarının müəyyənləşdirilməsində Azərbaycan konsepsiyasının öz elmiliyi və dolğunluğu ilə fərqlənməsi bir sıra xarici ölkələrin kitabxanaşünas alimləri tərəfindən yüksək qiymətləndirilmişdir [9].

Dünya kitabxanalarının keçdiyi beşminillik tarixi yola nəzər saldıqda belə bir həqiqət göz önünə gəlir ki, kitabxanalar həmişə elm adamları, görkəmli alimlər, filosoflar, yazıçılar, şairlər, yaradıcı ziyalılarla bağlı olmuşlar. Dünyanın ilk kitabxanalarını da alimlər, filosoflar, yazıçı və şairlər yaratmış və idarə etmişlər. Elə ilk kitabları yazanlar da, onların oxucuları da elm adamları, böyük mütəfəkkirlər, filosoflar olmuşlar. Qədim dünyanın və orta əsrlərin ilk böyük kitabxanaları olan Şumer, Assuriya, Yunanıstan, Roma, Çin, Şərq ölkələrin kitabxanalarının tarixinin öyrənilməsi də dediklərimizi

[8] *Azərbaycan qəzeti. 1999, 14 mart.*
[9] *Azərbaycan qəzeti. 1999, 14 mart.*





təsdiq edir. Həmçinin qədim dünya və orta əsrlərdə imperatorların, çarların, kralların, hökmdarların yaratdıqları dövlət kitabxanaları da elmi xarakter daşımış, elmi mərkəz kimi fəaliyyət göstərmişlər. Dövlət kitabxanalarının fəaliyyətinin öyrənilməsi bir daha göstərir ki, dövlət və saray kitabxanaları universal elmi kitabxana funksiyasını yerinə yetirən ölkədə aparılan elmi işlərə xidmət edən kitabxanalar olmaqla, görkəmli alimlərin toplanış yeri, elmi mübahisələr apardıqları mərkəzlər olmuşlar. Zaman keçdikcə kitabxanaların elmə xidmət işi daha da genişlənmiş, onlar elmi araşdırmalar aparan alimlərlə yanaşı elmi biliklərə yiyələnmək istəyən bütün insanlara xidmət etməyi ön plana çəkmişlər.

Qədim dövrlərdə və orta əsrlərdə dünyanın inkişaf etmiş ölkələrində olduğu kimi böyük zəngin kitab fonduna malik saray və şəxsi kitabxanalar Azərbaycanda da yaranmışdır. Belə kitabxanalar Atabəylər, Şirvanşahlar, Qaraqoyunlular, Ağqoyunlular və Səfəvilər dövlətlərinin saraylarında fəaliyyət göstərmişlər. Saray kitabxanaları dövlət kitabxanaları statusuna malik idi. Dövlət statusuna malik olan kitabxanaların fəaliyyəti elmi xarakter daşıyırdı. Orta əsrlərdə Azərbaycanda ilk elmi kitabxanalar da meydana gəldi: Görkəmli Azərbaycan alimi Nəsrəddin Tusinin Marağa Rəsədxanasının yanında 1259-cu ildə yaratmış olduğu kitabxana bilavasitə rəsədxananın elmi tədqiqat işinə xidmət edirdi.

Beləliklə, qədim və orta əsr kitabxanalarının fəaliyyətinin təhlili bir daha göstərir ki, kitabxanalar cəmiyyətin tərəqqi və inkişafında elmi müəssisə kimi mühüm rol oynamış, elmi tərəqqiyə xidmət etmək kitabxanaların əsas funksiyası olmuşdur.

Müasir elmi-texniki tərəqqi texnoloji inqilab əsri olan XXI əsr informasiyanın daha da intensivləşməsi və qlobal xarakter daşıması əsri kimi kitabxanaların qarşısında, insanlara xidmət işinin keyfiyyətcə yaxşılaşmasını, ardıcıl və məqsədyönlü olmasını, elmi xarakter daşımasını, bütün bilik sistemlərinin elmə xidmətə, elmi biliklərin sistemləşməsinə və idarə olunmasına yönəldilməsi kimi olduqca mühüm vəzifələr qoymuşdur.

Məhz buna görədir ki, müasir informasiya cəmiyyəti şəraitində kitabxanaların əsas funksiyası kimi elmi funksiyanın daha da təkmilləşməsi zərurəti əsas vəzifəyə çevrilmişdir.

İnformasiya funksiyası: Müasir kitabxanaların əsas funksiyalarından biri də informasiya funksiyasıdır. Çox haqlı olaraq görkəmli kitabxanaşünas alimlər informasiya funksiyasını kitabxanaların humanist missiyası kimi qiymətləndirirlər. Yaşadığımız informasiya cəmiyyətinin əsas xarakterik xüsusiyyəti informasiyanın toplanması, mühafizəsi və cəmiyyət üzvlərinə maneəsiz ötürülməsi hesab olunur. İnformasiya funksiyası müasir Azərbaycan kitabxanalarının prioritet funksiyası olduğundan onun kitabxana fəaliyyətinə tətbiqinə, oxuculara xidmət işinin məzmununa hopdurulmasına diqqət

artırılmalıdır. İnformasiya funksiyası kitabxana işində üç başlıca amilin formalaşmasına daha çox təsir göstərmişdir:

1. İstifadəçilərin informasiya tələbatını kommunikasiya texnologiyalarından istifadə etməklə ödəmək. Yəni informasiyanı, intellektual emal və təqdim etmək;

2. Tipindən və növündən asılı olmayaraq bütün kitabxanalarda (kütləvi, elmi, elmi-texniki, uşaq, dini və s.) informasiya verilməsində informasiya müəssisəsi kimi istifadə edilməsi;

3. Elm, texnika sahəsinin işçilərinə, biznesmenlərə və digər iş adamlarına xidmətin intellektual təşkili [10].

Yuxarıda göstərdiyimiz kitabxana-informasiya xidmətinin üç amilinin müasir kitabxanalarda tətbiqi informasiya funksiyasının daha da geniş inkişaf etdirilməsini, yeni texnoloji vasitələrdən istifadə edilməsini bir daha asanlaşdırır. Bunun başlıca səbəbi XX əsrin axırlarında böyük vüsət almış informasiya inqilabı və bu inqilabın kitabxana fəaliyyətinə böyük və həlledici təsiri olmuşdur. İnformasiya inqilabı demək olar ki, kitabxana işinə, onun strukturuna, fəaliyyət istiqamətinə, oxuculara xidmət prosesinə, böyük yeniliklər, xidmət forma və üsulları gətirmiş, kitabxana fəaliyyətini elmi metodlar və anlayışlarla zənginləşdirmişdir. Kitabxana xidməti fəaliyyətinə, yeni xidmət növü informasiya xidməti anlayışı daxil edilmişdir. Kitabxanalar informasiya xidmətini təşkil etmək, xüsusilə kitabxanalara yeni tələbatla gələn oxuculara xidmət etməyin yeni forma və üsullarını formalaşdırmaq üçün yeni informasiya şöbələri yaratmışdır. Bu şöbələr oxuculara həm ənənəvi, həm də elektron xidmət göstərməklə iki xidmət növü arasında qarşılıqlı əlaqələrin, bu xidmət növlərinin vahidliyinin və tamlığının daha keyfiyyətli olmasını məqbul hesab edirlər. Kitabxanalarda yaranan elektron kataloq oxucu-kitabxana münasibətlərinin daha da yaxınlaşmasına, oxuculara xidmətin keyfiyyətcə yüksəlməsinə, internetə qoşulan elektron kataloqlardan virtual yolla istifadənin mümkünlüyü isə oxucuların vaxta qənaət etməsinə kömək etmişdir.

Müasir dövrdə kitabxanaların informasiya funksiyasının yerinə yetirilməsində internetin böyük əhəmiyyəti danılmazdır. Əsrimizin ən böyük möcüzəsi hesab olunan internet insan əlinin və əqlinin əfsanəvi (fantastik) əsəridir. Bir çox elmi-texniki kəşflərdən fərqli olaraq onun nə ixtiraçısı, nə layihələşdirəni, nə də qurucusu olmayıb. İnternetin sosial-mədəni sərvət kimi meydana çıxmasına baxmayaraq onun mülkiyyətçisi yoxdur. İnternet şəbəkəsinə daxil olan məlumatlar intellektual sərvət olduğundan hər bir informasiyanın öz mülkiyyətçisi və müəllifi vardır. Beləliklə, internet öz-özünə meydana gələn və yaxud təbii olaraq yaranan texnoloji sivilizasiyanın məcazi mənada övladıdır. Çox böyük istedada malik olan bu uşaq gələcəkdə daha böyük

[10] *Библиотековедение. 2013. №3,с.27*





xariqələr yaratmağa qadirdir. Zaman keçdikcə insanların danışdığı, ünsiyyətdə olduğu dil kimi bəşəriyyətin əsas köməkçisi olacaqdır. Milli dillər çoxdur, internet isə bəşəriyyətə xidmət edən, onları bir-birini baş-başa düşməyə, birləşdirməyə can atan, qloballaşan dünyanın əsas vasitəsi kimi reallaşır. Məhz buna görədir ki, müasir informasiya cəmiyyətində internet özünü xüsusi sosial-mədəni sərvət kimi ifadə edir. Texniki nöqteyi-nəzərdən internet beynəlxalq informasiya mədəniyyətinin formalaşmasına böyük fayda verən etibarlı vasitədir-institutdur. İnternetin aşağıda göstərdiyimiz üstünlükləri informasiya cəmiyyətinin yüksək tempinə, inkişafına zəmin yaradır:

-İnternet şəbəkələrinin transmilli olması;

-Regional və milli iqtisadi məkanların qlobal iqtisadiyyata inteqrasiya etməsinə köməkliyi;

-Müxtəlif siyasi rejimlərin mədəniyyət və dil ayrılıqları olmasına baxmayaraq onlarla birlikdə fəaliyyət göstərə bilməsi;

-Multimedia və audio, video materiallar vasitəsi ilə xalq kütlələrinə təsiri;

-Söz azadlığının məhdud olduğu şəraitdə belə cəmiyyətin inteligentləşməsinə kömək etmək imkanı olması və s.

Bu kimi üstünlükləri bir daha internetin cəmiyyətin biliklər cəmiyyətinə doğru inkişafına kömək edən əsas vasitə olmasını təsdiqləyir. Məhz buna görədir ki, müasir şəraitdə tipindən və növündən asılı olmayaraq bütün kitabxanalar internetsiz keçinə bilməz. Bunun üçün kitabxanalarda oxucuların internetdən istifadəsi üçün ayrıca texniki vasitələrlə təchiz olunmuş oxu zalları yaradılmalıdır. Kitabxanalarda oxucular arasında internet, onun əhəmiyyəti, internetdən istifadə etməyin zəruriliyi haqqında geniş izahat işi aparılmalıdır.

Müasir kitabxanaların sosial funksiyaları çox böyükdür. Bu funksiyalar həm müasir informasiya cəmiyyətinin qarşıya qoyduğu elmi-texnoloji, həm də kulturoloji-humanistik prinsiplərlə kompleks şəkildə bir-birini əlaqələndirmək, inteqrasiya etmək, bütövləşmək formasında xidmət edir. Həm cəmiyyətin zehni, həm də intellekt səviyyəsinin yüksəlməsinə, inkişaf və tərəqqisinə xidmət edir. Buradan da kitabxanaların həm elmi-texnoloji, həm də kulturoloji-humanistik missiyası özünü büruzə verir. Kitabxanaların kulturoloji-humanistik funksiyalarına onun cəmiyyətin mədəni, təhsil, tərbiyə sahəsindəki fəaliyyəti daxildir. Bu funksiyalara son zamanlar daha çox prioritet əhəmiyyət kəsb edən mədəniyyət, təhsil və tərbiyə funksiyaları daxildir. Beş min il tarixi olan dünya kitabxanalarının fəaliyyətində bu funksiyalar həmişə qabaqcıl mövqe tutmuş, həm cəmiyyətin intellektuallaşmasında həm də intelegentləşməsində humanizmə doğru tərəqqisində böyük bir epoxal missiyanı həyata keçirmişdir. Deməli, kitabxanalar cəmiyyətin sivilizasiyaya, bəşəri mədəniyyətə doğru inkişafında iştirak etmiş, fəaliyyət göstərmiş bir müəssisə kimi inkişaf etmiş, özü də xidmət göstərdiyi cəmiyyətin bilavasitə təsir dairəsində

təkamül yolu ilə inkişaf etmiş, maddiləşmiş, müqəddəsləşmiş biliyin-kitabın vasitəsi ilə tərəqqi və inkişafın əsas daşıyıcısına çevrilmişdir.

Mədəniyyət funksiyası: Dünya kitabxana işinin tarixinə nəzər saldıqda belə bir tarixi fakt meydana çıxır ki, kitabxanalar bəşəriyyətin inkişafının məhək daşı olan mədəniyyətin ayrılmaz tərkib hissəsi kimi yaranmış, təkamül yolu ilə inkişaf etmiş, cəmiyyət həyatının əsas sütunlarından birinə çevrilmişdir. Mədəniyyətin inkişafı kitabxanaların yaranmasının, fəaliyyətinin əsas və həlledici amili olduğu kimi kitabxanalar da tarixi inkişaf prosesində mədəniyyətin inkişafının vacib amillərindən biri kimi kommunikasiya prosesinin əsas vasitəsi kimi fəaliyyət göstərmişdir. Görkəmli Amerika alimi D.X.Şira mədəniyyət və kitabxana münasibətlərindən danışarkən çox haqlı olaraq göstərmişdir ki, "Kitabxanaşünaslıq kommunikasiya prosesinin elə bir sahəsidir ki, məhz onun vasitəsi ilə mədəniyyəti qorumaq mümkün olur. Belə ki, kommunikasiyasız mədəniyyət yoxdur"[11].

Cəmiyyətin inkişafında, onun təkmilləşməsində mühüm rol oynayan mədəniyyət bəşəriyyətin yaratmış olduğu ən böyük möcüzədir. Bəşəriyyətin zəkası, biliyi və tarixən yaradılmış təcrübəsi öz ifadəsini mədəniyyətdə tapır. Böyük alman filosofu Hegelin dediyi kimi: "Xalqların müdrikliyini öyrənməyin yeganə yolu mədəniyyətin əlindədir". Böyük filosofun bu kəlamı cəmiyyətlərin, dövlətlərin, xalqların tarixində mədəniyyətin həlledici güc olduğunu təsdiq edir.

Mədəniyyət cəmiyyətin tarixi inkişaf prosesində əldə etdiyi maddi və mənəvi sərvətlərin məcmusudur, həmçinin bəşəriyyətin tərəqqisi üçün ondan istifadə etmək, qoruyub saxlamaq, onları nəsildən-nəslə ötürmək bacarığıdır. Cəmiyyətin hamisi olduğu kitabxanalar isə tarixən cəmiyyətin həm maddi, həm də mənəvi inkişafında yaxından iştirak etmişdir. Maddi mədəniyyət bilavasitə istehsalla, elmi-texniki proseslə əlaqədar olduğundan mədəniyyət cəmiyyətin iqtisadi inkişafında, intellektuallaşmasında elmi-texniki tərəqqiyə xidmət etmiş, cəmiyyətin inkişafında baş verən möcüzəli proseslərin formalaşmasına kömək etmişdir. Mədəniyyət bütün cəmiyyətlərdə elmin, elmi-texniki tərəqqinin, bütün texnoloji iqtisadiyyatın, sənayenin, maddi nemətlər istehsal edən bütün sahələrin inkişafına təkan verən mühüm təsisatdır. Mədəniyyətin ikinci mühüm tərəfi olan mənəvi mədəniyyət isə bilavasitə insan amili, insanların tərbiyəsi, təhsili, yetkinləşməsi və formalaşması ilə bağlıdır. Mədəniyyət insanın sirli, sehrli dünyasıdır. Onun özünü dərk etməsi isə şəxsiyyətin mövcudluq amilidir"[12].

[11] *Д.Х.Шира. Введение в библиотековедение. М., 1983, с.245.*
[12] *Ağayar Şükürov. Kulturologiya. B.1998, s. 18*





Mədəniyyət cəmiyyətin formalaşmasında, onun inkişafında və tərəqqisində mühüm vasitə olmaqla yanaşı, həmçinin onun nailiyyətləri xalqın mənəvi dəyərlərini müəyyənləşdirir və milli sərvətə çevrir.

Mədəniyyətin ayrılmaz tərkib hissəsi olan kitabxanalar da tarixən mədəniyyətin mühüm sahəsi kimi, cəmiyyətdə gedən inkişaf, kamilləşmə və humanistləşmə prosesində yaxından iştirak etmiş, bəşəriyyətin ən böyük kəşfi olan, insan təfəkkürünün, insan zəkasının möcüzəsi olan kitabı toplayıb saxlamış, bu böyük sərvətlərin əsrlərdən əsrlərə, nəsillərdən-nəsillərə keçməsinin səbəbkarı olmuşdur. Məhz buna görədir ki, dünyanın böyük alimləri, filosofları, mütəfəkkirləri, yazıçıları, dövlət xadimləri və s kimi görkəmli şəxsiyyətlər bəşər mədəniyyətinin inkişafında kitab və kitabxananın roluna yüksək qiymət vermişlər.

Böyük filosof F.Bekon kitabı, zamanın dalğaları arasından keçib səyahət edən, öz qiymətli yükünü nəsillərdən-nəsillərə çatdıran fikir gəmisi" adlandırmışdır. A.Eynşteyn "Bir insanın fikirləri kitabın köməyi ilə milyonlarla insana çatdırıla bilər", Ş.Monteskiyo "Keçmiş həyatını heç vaxt geri qaytara bilməzsən, amma bir kitabın köməyi ilə dünyanın ən böyük alimlərinin ömürboyu əldə etdikləri təcrübəni qazana bilərsən" demişdir. Böyük filosof Sokrat isə "Mütaliə bir cəmiyyətin gündəlik vərdişinə çevrilərsə, həmin cəmiyyət xoşbəxt olar" söyləmişdir.

Ulu öndər Heydər Əliyev bütün bəşər övladının kitaba borclu olduğunu, qeyd etmiş, təhsilin, elmin, mədəniyyətin inkişafında kitabın əvəzsiz rolunu yüksək qiymətləndirmişdir. Kitab haqqında ulu öndərin tarixi kəlamları hər bir insan üçün həyat dərsidir. Heydər Əliyev yazır: "Hər birimiz ilk növbədə ancaq kitab vasitəsi ilə təhsil alırıq, məhz buna görə də kitaba borcluyuq"[13].

Yuxarıda göstərdiklərimiz bir daha sübut edir ki, bəşər mədəniyyətinin formalaşmasında, mədəni sərvətlərin cəmiyyət üzvlərinə çatdırılmasında böyük tarixi təcrübə qazanmış kitabxanalar, uzun illərdən bəri bəşərin yaddaşı olan kitabları toplayıb mühafizə edib, onu insanların istifadəsinə vermək kimi olduqca böyük, tarixi humanitar missiyanı həyata keçirmişlər. Hələ çox erkən dövrlərdən məlum olan kitabxanaların mədəniyyət funksiyası bilavasitə insanların mənəviyyatı ilə bağlı olduğundan humanitar xarakter daşımaqla, digər mühüm funksiyalarla, xüsusilə təhsil və tərbiyə funksiyaları ilə sıx əlaqədə fəaliyyət göstərir. Mədəniyyət funksiyası insan faktoru, insanların təhsili, tərbiyəsi, intellektual səviyyəsinin yüksəlməsi, sosiallaşması prosesini həyata keçirdiyi üçün kompleks xarakter daşıyır, kitabxana fəaliyyətinin inteqrasiyasını, əlaqələndirilməsini və bütövlüyünü təmin edir. Kitabxanaların mədəniyyət funksiyası həm maddi, həm də mənəvi mədəniyyətə, onların inkişaf istiqamətlərinə xidmət edir. Kitabxana mədəniyyətin tərkib hissəsi

[13] *Xələfov A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. B., 2007, səh. 241*

kimi cəmiyyətin həyatında baş verən qlobal mədəni proseslərdə iştirak etdiyi kimi, mədəniyyət də öz növbəsində kitabxanaların elmi, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi formalaşmasına köməklik edir.

Beləliklə, mədəniyyətlə kitabxana arasında mövcud olan qarşılıqlı əlaqə və bağlılıq kitabxanaların mədəniyyət funksiyasının böyük sosial əhəmiyyətini aşkara çıxarır. Mübaliğəsiz demək olar ki, kitabxanalar insan amilinin formalaşmasında onun maariflənməsində, tərbiyələndirilməsində, təhsil, tərbiyə və mənəvi inkişafında yaxından iştirak edən ən mühüm müəssisədir. Kitabxanalar insanların intellektual səviyyəsinin yüksəlməsinə, cəmiyyətin intellektuallaşdırılmasına kömək etdiyi kimi, həm də insanların kamilləşməsinə, sosiallaşmasına intellekt səviyyəsinin yüksəlməsinə böyük köməklik edir. Kitabxanalar da mədəniyyətə xas olan xüsusiyyətlərə əsaslanaraq bioloji varlıq kimi ayrıca götürülmüş insanın yaş dövrlərinə müvafiq doğulduğu gündən dünyasını dəyişdiyi günədək onu müşayiət edir. İnsanların güvəndiyi bir yer və yol yolçusu kimi fəaliyyət göstərir. Cəmiyyətdə bir qayda olaraq insanlara yaş xüsusiyyətlərinə müvafiq olaraq xidməti təşkil etmək üçün kitabxanalar məktəb kitabxanaları, uşaq kitabxanaları, gənclər kitabxanaları, kütləvi kitabxanalara bölünür.

Təhsil funksiyası: Kitabxanaların əsas funksiyalarından biri də təhsil funksiyasıdır. Təhsil problemi bütün cəmiyyətdə prioritet problem olduğundan, kitabxanalar da bu problemin həllində yaxından iştirak edirlər. Kitabxanalar yarandığı gündən təhsillə bağlı olmuşdur. Qədim dünya kitabxanaları təhsil müəssisələrinin yanında yaranmış, məktəblər formalaşdıqdan sonra isə məktəb kitabxanaları kimi məktəblərin əsas atributlarından birinə çevrilmişdir. Təhsil prosesində ardıcıl olaraq iştirak edən kitabxanalar sistemləşdirilmiş bilik, bacarıq və vərdişləri yaşından asılı olaraq təhsil prosesinin bütün iştirakçılarına, şagirdlərdən başlamış ali məktəb tələbələrinə, gənclərdən başlamış fasiləsiz təhsillə məşğul olan yaşlı nəslə müvəffəqiyyətlə xidmət edir. Məktəb kitabxanaları müasir şəraitdə təhsilin keyfiyyətinin yüksəldilməsində müəllim kollektivinin əsas köməkçisi rolunu oynayır. Kitabxanalar təhsilin keyfiyyətinin yüksəlməsinə bilavasitə köməklik edən mütaliə prosesinin təşkili və sinifdən kənar işlərin aparılmasının əsas təşkilatçısı kimi çıxış edir. Şagirdlərdə mütaliə mədəniyyətinin tərbiyə edilməsi, əlavə ədəbiyyat tövsiyəsi onların əqli inkişafında, tədris edilən fənnin daha dərindən mənimsənilməsində, ümumiyyətlə, məktəblilərin, ümummədəni və intellektual səviyyəsinin yüksəldilməsində, hərtərəfli, ahəngdar inkişafında və tərbiyəsində olduqca mühüm rol oynayır. Bu baxımdan böyük rus şairi A.S.Puşkinin "Mütaliə ən yaxşı təlimdir" kəlamı kitabxanaların təhsil funksiyasının əhəmiyyətini bir daha təsdiq edir.

Tərbiyə funksiyası: Kitabxanaların sosial funksiyaları içərisində özünə məxsus əhəmiyyət kəsb edən tərbiyə funksiyası cəmiyyət üzvlərinin





sosiallaşmasına, mədəni səviyyəsinin yüksəlməsinə yaxından kömək etməklə yanaşı insan və cəmiyyət, mənəviyyat və insan, qanun və insan problemlərinin həllində də yaxından iştirak edir. Cəmiyyətdə tərbiyə prosesinin təşkili olduqca çoxşaxəli, çoxsahəli fəaliyyət sahəsidir.

Məhz buna görədir ki, cəmiyyətin strukturuna daxil olan bütün elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisələrinin bu prosesin ardıcıl, məqsədyönlü aparılmasında birgə fəaliyyət göstərmələri daha çox tələb olunur. Kitabxanalar tərbiyə funksiyasını yerinə yetirmək üçün oxucuların mütaliəyə cəlb edilməsinə, kitabın xalqın məişətinə daxil edilməsinə, mütaliə mədəniyyətinin tərbiyə edilməsinə diqqət yetirməlidirlər.

Mütaliə bilik əldə etməyin, elmə yiyələnməyin, biliklərin idarə edilməsinə nüfuz etməyin ən mühüm vasitəsi olduğu kimi, həm də özünün məzmunu və istiqaməti etibarı ilə tərbiyə prosesinin tərkib hissəsidir. Mütaliənin sosial mühitin ictimai xarakterinin nədə özünü göstərməsinə diqqət yetirərkən aydınlaşır ki, o təcrid olunmuş şəkildə baş vermir, bütün ictimai həyatın tərkib hissəsi, şəxsiyyətlərarası əlaqələrin, həmçinin ünsiyyətin əsas predmeti kimi meydana çıxır. Kitabxanalar mütaliənin təşkilinə ictimai şüurun formalaşmasına, oxucuların sosiallaşmasına kömək edən tərbiyə prosesi kimi baxmalı və bu işi elmi əsaslara söykənərək aparmalıdırlar.

Tərbiyə funksiyasının Azərbaycan kitabxanalarının əsas funksiyası olması "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda da öz əksini tapmışdır. Beləliklə, tərbiyə funksiyası kitabxana işinin ayrılmaz tərkib hissəsi kimi böyük sosial əhəmiyyət daşıyır.

Biz yuxarıda 1999-cu ildə qəbul olunmuş "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilmiş kitabxanaların beş sosial funksiyası (elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə) haqqında geniş məlumat verdik və bu qanunun yüksək elmi əhəmiyyət kəsb etdiyini ətraflı şərh etdik. Ancaq beynəlxalq elmi ədəbiyyatda kitabxanaların bu beş mühüm sosial funksiyalarından başqa, əlavə funksiyalarının olması haqqında da yeni fikirlər vardır. Bu fikirlərə də diqqət yetirmək yerinə düşər:

Doğrudur, kitabxanaşünasların yeni təklif etdikləri funksiyalar kitabxanaların əsas və həlledici funksiyaları olmasa da, müasir informasiya cəmiyyətində kitabxanaların rolu artdıqca təklif edilən bütün funksiyalardan istifadə etmək, yeni cəmiyyətin qarşıya qoyduğu vəzifələri tam ödəmək zəruridir. Kitabxanaların yuxarıda nəzərdən keçirdiyimiz beş funksiya ilə yanaşı kitabxanaların yeni funksiyaları: Memorial, kumulyativ, kommunikativ, koqnitiv funksiyalarına da diqqət yetirmək və kitabxanaların tipindən, növündən asılı olaraq istifadə etmək yerinə düşərdi.

Memorial funksiya (Memorial-latın dilində-xatirə): Memorial funksiyanın mahiyyətini keçmiş nəsillərin yaratmış olduğu elmi biliyin, mədəni və mənəvi sərvətlərin gələcək nəsillərə çatdırmaq üçün onu toplayıb, saxlamaq,

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası
20384

mühafizə etmək və müasir texnologiyaya əsaslanaraq təbliğ etmək təşkil edir. Kitabxanaların tarixi inkişafına, onun cəmiyyətdə tutduğu yerin və oynadığı rolun müəyyənləşməsinə xidmət edən bu proses ayrı-ayrı ölkələrin tarixinə, iqtisadiyyatına, mədəniyyətinə, ölkənin spesifik xüsusiyyətlərinə dair maddiləşmiş bilik və digər məlumat vasitələri ilə xidmət göstərir.

Müasir şəraitdə kitabxanalar memorial funksiyalarını daha da genişləndirmiş, kitabxana-informasiya texnologiyalarını kitabxana xidməti prosesinə tətbiq etməklə xidmət etdiyi regionların inkişafına, digər regionlar və ölkələrlə inteqrasiya prosesini həyata keçirilməsini və mədəniyyətlərarası əlaqələrin və inteqrasiyanın aparılmasına əhəmiyyətli təsir göstərməyə başlamışdır. Kitabxanaların internet şəbəkələrinə qoşulması, regionlara aid materialların toplanması və istifadə edilməsi prosesi kitabxana xidmətinin təşkili işini xeyli yaxşılaşdırmışdır.

Kommunikasiya funksiyası: Kitabxanaların müasir funksiyalarından biri də kommunikasiya funksiyasıdır. İnsanların informasiya tələbatını ödəməyi qarşısına məqsəd qoyan kitabxanalar tarixən kommunikasiya mərkəzi kimi formalaşmış, müxtəlif tarixi şəraitdə və müxtəlif cəmiyyətlər də cəmiyyət ilə insan arasında, oxucu ilə kitabxanaçı arasında qarşılıqlı informasiya kanallarının yaradılmasında, əlaqələndirilməsində və təkmilləşdirilməsində əsas vasitə kimi çıxış etmişdir.

Kitabxanaların kommunikasiya müəssisəsi kimi biliklərin idarə edilməsində əldə etdiyi innovasiyalar bilik dünyasına açılan pəncərələrdir. Kommunikasiya funksiyası çərçivəsində insanlar kitabxanaların sosial-iqtisadi statusundan və yerləşdiyi regiondan asılı olmayaraq maddiləşdirilmiş bilikdən istifadə etmək imkanı qazanırlar. Oxucuların istifadəsi üçün kitabxanalarda bir ənənə olaraq yaradılmış kitabxana-informasiya xidməti oxucu ilə kitabxana arasında kommunikasiya prosesinin daha səmərəli təşkili üçün əlverişli şərait yaradır.

Kitabxanarın humanist missiyası olan kitabxana resurslarının təmənnasız oxucuların istifadəsinə verilməsi prosesi daha demokratik, daha insani xarakter alır, insanlar arasında heç bir fərq qoyulmamaq kimi bəşəri ideyaların təntənəsinə gətirib çıxarır.

İnformasiya cəmiyyəti şəraitində kitabxanaların kommunikasiya vasitəsi kimi praktiki əhəmiyyəti daha da atmış, cəmiyyətin sosiallaşmasının əsas elementinə çevrilmişdir. Kitabxana kommunikasiya münasibətləri demək olar ki, kitabxana fəaliyyətinin bütün sahələrində, xüsusilə oxucu ilə kitabxanaçı arasında, kitabxananın məlumat axtarış sistemləri ilə oxucu arasında daha geniş inkişaf tapmışdır.

Beləliklə, müasir informasiya cəmiyyəti kitabxanaların kommunikasiya fəaliyyətinə tamamilə yeni impuls vermiş, onun qarşısına kitabxana-informasiya texnologiyasından istifadə etmək vəzifəsi qoymuşdur.





Koqnitiv funksiya: Son zamanlar kitabxanalarda geniş istifadə edilən funksiyalardan biri də koqnitiv funksiyadır (latın dilində başa düşmək, dərk etmək, şüurla, düşüncə və təfəkkürlə bağlı olan deməkdir). Dünyada böyük əks səda doğuran, informasiya cəmiyyəti kitabxana işinə də böyük inqilabi yeniliklər gətirdi. Ənənəvi kitabxana işinin strukturunda, forma və məzmununda, əhaliyə kitabxana xidmətinin keyfiyyətində ciddi dəyişikliklər yaratdı. Kitabxanalar təkcə maddiləşmiş bilikləri toplayıb saxlayan mühafizəçi müəssisə olaraq kifayətlənməmiş, tamamilə yeni koqnitiv funksiyalar həyata keçirən, biliklərin sistemləşdirilməsində yaxından iştirak edə bilən, biliklərin idarə edilməsini həyata keçirən, yeni biliklər yaradan bir müəssisəyə çevrilmişdir. Kitabxana fəlsəfəsi insanın biliklərlə necə davranması, onun necə sistemləşdirilməsi və yeni bilikləri necə yaratması məsələlərini də tədqiq edir. Biliyin strukturlaşdırılması, təşkili və onunla iş metodlarının yaradılması idrak nəzəriyyəsində aparılan tədqiqatlara oxşayır[14].

Bu tədqiqatlar idrak nəzəriyyəsində aparılan tədqiqatlara oxşadığından bu problem fəlsəfi problem hesab olunur. Biliklərin sistemləşdirilməsi məsələsinə gəldikdə isə bu, kitabxanadan dərin tədqiqatlar aparan bir elmi müəssisəyə çevrilməyi, kitabxanaçıdan isə dərin nəzəri bilik, intellektual səviyyə, müxtəlif elm sahələrindən baş çıxarmaq, təhlil etmək, ümumiləşdirmələr aparmaq qabiliyyəti tələb edir.

Biliklərin sistemləşdirilməsi hər şeydən öncə onun təsnifləşdirilməs, təsnifat cədvəllərinin yaradılması ilə bağlıdır. Məlumdur ki, heç bir elm sahəsində tamamlanmış təsnifat yaratmaq mümkün deyildir. Çünki elmlər bir yerdə dayanıb durmur, daima inkişaf edir. Belə ki, gələcəyi (gələcək yeni bilikləri) indiki dövrə sığışdırmaq qeyri-mümkündür. Elmlər və biliklər daim yeniləşmə, dəyişmə prosesinə məruz qaldıqlarından bütün bilikləri əks etdirən yeganə sxem (cədvəl) yoxdur. Belə bir şəraitdə yeni elmi bilikləri, bu biliklərə aid maddiləşmiş sənədləri kitabxanalarda mövcud olan sənədlər sxeminə daxil etmək, onu oxucuların istifadəsinə vermək zərurəti meydana çıxır.

Məhz kitabxanaların bu fəaliyyəti onların yaradıcı koqnitiv (funksiyası) fəaliyyəti kimi özünü göstərir. Kitabxanalar bilikləri məzmun əlamətinə görə, elmlər arasındakı inteqrasiya prosesinə görə, rəsmi mövcud sxemlərin olmamasına baxmayaraq, ideya və baxışlarına görə yeni olan kitabları kataloqa yeni rubrikalar daxil etməklə əks etdirə bilərlər (əks etdirirlər). Bu isə kitabxanalardan böyük elmi deduksiyaya, ciddi elmi sistemləşmə və ümumiləşdirmə aparmaq qabiliyyətinə, yaradıcı təfəkkürə malik olmağı tələb edir. İnformasiya cəmiyyəti şəraitində kitabxanalar təkcə biliyin idarəedicisi kimi yox, həm də onun yaradıcı kimi çıxış etməklə yeni biliklər cəmiyyətini formalaşdıran əsas quruma, yeni cəmiyyətin qurucusuna çevrilməlidir.

---

[14] *Kitabxanalar biliklər cəmiyyətində. B., 2006, səh. 304.*

## ƏDƏBİYYAT

### Azərbaycan dilində

1. Kramer S.S. Tarix Şumerdən başlanır. B. - 2009. -280 s.
2. Kazımi P.F. İnformasiya mühəndisliyi. B., Bakı Universiteti, 2011. - 235 s.
3. Xələfov A.A. Kitabxanaşünaslığa giriş. I hissə. -B, 2001, 398 s.
4. Xələfov A.A. Kitabxanaşünaslığa giriş. II hissə. –B., 2003, 314 s
5. Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. B., 2006,312 s.
6. Xələfov A.A. Kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir. -B., 2010.-186 s.
7. Xələfov A.A. Kitabxanaçılıq fikirlərinin meydana gəlməsi, təşəkkülü və inkişafi // Kitabxanaşünaslıq və informasiya. Elmi-nəzəri və praktiki jurnal, 2010,№2 s.7-9
8. Xələfov A.A. İnformasiya cəmiyyəti və kitabxanaşünaslığın müasir problemləri // Kitabxanaşünaslıq və informasiya. Elmi-nəzəri və praktiki jurnal, 2010,№1 s.9-14
9. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik: 3 hissədə H.3. XX əsrin ikinci yarısında və XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin tarixi. B., 2010, 432 s.
10. Xələfov A.A. Kitabxana və kommunikasiya // Kitabxanaşünaslıq və informasiya. Elmi-nəzəri və praktiki jurnal, 2011, №1(4). s.4-16
11. Xələfov AA. Aərabyacanda kitabxanaçılıq təhsilinin inkişafi tarixindən (1947-2011-ci illər) // Kitabxanaşünaslıq və informasiya. Elmi-nəzəri və praktiki jurnal, 2010, №1. s.9-14

### Rus dilində

1.Библиотеки в обществе знаний (Двуязычный азербайджанско-российский проект).Б.., 2006, -516 с.
2.библиотековедение//Научно-практический журнал, 2011, № 6. Москва.
3.Викторовна Н.Б., Абрамович Л.К. Сбор и хранение цифровой информации правовые аспекты// Библиотековедение: научно-практический журнал, 2011, № 6, с.34-44
4.Глухов В.А. Электронные библиотеки. Организация, технология и средства доступа/И.А. Глухов, О.Л.Голицина, И.В.Максимов// Науч.-техн. информ. Сер.1.Орг. и методика информ. работы.-2000.№ 10.-с.1-8





5.Глухов В.А.. О.Л.Лаврик.»Электронное библиотечное дело» Библиосфера, 2007.№4, с.3-6
6.Джаксо П. Что такое электронное библиотековедение? //Научн.-техн. библиотеки. -2002. №1. с.123-126
7.Джиго А.А. Электронные ресурсы в информационно-телекоммуникационной среде // Библиотековедение: научно-практический журнал, 2011.№6. с.32-33
8.Земсков А.И.электронные библиотеки: учеб для вузов. Земсков А.И, Я,Л.Шрайберг.-М., 2003.-351 с.
9.Карташов Н.С., Скварцов В.В. Общее библиотековедение. -М., 1996.-90 с.
10. Карташов Н.С. Сравнительное библиотековедение// Российское библиотековедение: XX век направления развития, проблемы и итоги: опыт. моногр. исслед.-М., 2003.с.331-347
11. Константинович В.К. Учебно-методическое сопровождение бакалаврской управленческой подготовки библиотечно-информационных кадров в контексте формирования профессиональных компетенций // Библиотековедение: научно-практический журнал, 2011, №6, с. 110-116
12. Столяров Ю.Н. Электронные библиотековедение. М., 2005.-№2.-с.94-102
13. Шира Дж.Х.Введение в библиотековедение. М., 1983-256 с.
14. Шрайберг Я.Я. Библиотеки электронная информация и меняющееся общество в информационном веке. -М., 2006.-35 с.
15. Кузнецова Г.Я.Библиотека в информационном обществе: Онтологические основания социокультурного моделировании. АПРИКТ.
16. Гикунова И.П. Концептуальная модель современной библиотеки: Социально-философский анализ (Рукопись)автореферат диссертации соискание ученой степени кандидата философский наук. Архангелск, 2007, 18 стр.

### Концептуальная модель современных библиотек (идеи и понятия)

А.А. Халафов

**Резюме**

Статья посвящена проблеме, которая до сегодняшнего дня не подверглась исследованию. Эта проблема требует исследования и изучение.

*В статье с целью создания модели современной библиотеки, рассмотрен пяти тысячелетний путь традиционных библиотек, а так же рассмотрены реформы в области библиотечного дела, интеграции библиотечного дела с информацией в условиях информационного общества. Нужно отметить, что в статье на основе научных идей и мыслей ученых о структуре, содержания и дели библиотек отмечены новые научные мысли и идеи по созданию модели будущих библиотек.*

## *Conceptual model of modern libraries (ideas and conceptions)*

***A.A. Khalafov***

***Summary***

*The article is dedicated to the problem yet to be studied and analyzed in the Republic today. The article presents a precise illustration of the five thousand years long way of traditional libraries in order to create the model of modern libraries. Furthermore, the reforms in the library work, conceptual model, status, structure, social functions of libraries, e-library work, e-library study, hybred library etc.*